**Şəhriyar Müslət oğlu Kərimov**

**UOT: 677: 338.45; JEL: L60; O53; N15.**

# Azərbaycanda yüngül sənaye sahəsinin inkişafının strateji aspektləri

***Xülasə***

*Tədqiqatın məqsədi – Azərbaycanda yüngül sənaye sahəsinin inkişafinin strateji aspektlərinin tədqiq edilməsidir. Məqalədə yüngül sənaye sahəsinin inkişaf potensialı üzrə problemlər öyrənilmiş və açıqlanmışdır. Yüngül sənayenin modelləşdirilməsi və müasir texnologiyalar bazasında inkişaf etdirilməsi məsələləri araşdırılmışdır. Azərbaycanda yüngül sənayenin vəziyyəti, bu sahədə məhsul istehsalının həcmi və ölkə ÜDM-də xüsusi çəkisi təhlil olunmuşdur. Yüngül sənayenin sürətli inkişafına mane olan amillər müəyyənləşdirilmiş və onların nəzərə alınmasının vacibliyi bildirilmişdir. Yüngül sənaye sahəsinin müasir qlobal şəraitdə inkişaf etdirilməsi üzrə strateji aspektlər əsaslandırılmış və fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir. Tədqiqatın metodologiyası – məqalədə baxılan problemlərdən yanaşmaqla, yüngül sənaye sahəsinin inkişafının strateji aspektlərinə həsr olunmuş iqtisadi ədəbiyyatlardan bəhrələnmiş və iqtisadi metodlar kimi- təhlil, sintez və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Tədqiqatın tətbiqi əhəmiyyəti – araşdırma nəticəsində alınmış elmi-praktiki yanaşmalardan, təklif və tövsiyələrdən Azərbaycanda yüngül sənaye sahəsinin inkişafının müasir dövrün tələbləri çərçivəsində təşkili və fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi tədbirlərində istifadə edilməsindən ibarətdir. Tədqiqatın nəticələri – əsaslandırılmış elmi-metodoloji yanaşmaların ümumiləşdirilməsi, təklif olunan mexanizmlərin tətbiq olunması hesabına Azərbaycanda yüngül sənaye sahəsinin inkişafının sürətləndirilməsi üzrə daha təsirli tədbirlərin görülməsi ilə bağlıdır. Tədqiqatın orijinallığı və elmi yeniliyi – məqalədə baxılmış problemlər üzrə ümumiləşdirilmiş fikirlər, mülahizələr, müddəalar və müəllif yanaşmaları orijinallığı ilə fərqlənir. Əsas elmi yenilik kimi isə müasir qlobal problemlərin təsirinin davam etdiyi bir şəraitdə Azərbaycanda yüngül sənaye sahəsinin inkişafının strateji aspektlərinə konseptual yanaşmaların formalaşdırılmasıdır. Yüngül sənaye sahəsinin mövcud potensialından çıxış etməklə, bu sahənin müəssisələrinin rəqabət qabiliyyətinin artırılması və innovativ inkişafının təmin edilməsinin vacibliyi əsaslandırılmışdır. Pandemiyanın mənfi təsirinin aradan qaldırılması nəzərə alınmaqla, yüngül sənaye müəssisələrinin investisiya fəaliyyətinin stimullaşdırılması və istehsal proseslərinin intensivləşdirilməsinin vacibliyi verilmişdir. Azərbaycanda yüngül sənaye sahələrinin inkişafının strateji aspektləri üzrə tövsiyələr verilmiş və təkliflər irəli sürülmüşdür.*

***Açar sözləri:*** *yüngül sənaye, yüngül sənaye müəssisələri, yüngül sənayenin strateji aspektləri, yüngül sənayenin inkişaf istiqamətləri, yüngül sənayenin inkişaf problemləri, yüngül sənayenin səmərəlilik məsələləri, yüngül sənayenin inkişafının strateji aspektləri.*

## Giriş

İstənilən ölkənin yüngül sənayesi onun strateji inkişafının əsas istiqamətlərindən biridir. Yüngül sənaye bir neçə sənaye sahəsini birləşdirən, ölkənin iqtisadi vəziyyətinin sabit artımına təsir göstərən, cəmiyyətin sosial və intellektual səviyyəsini təmin edən iqtisadiyyatın mühüm sahələrindən biridir. Yüngül sənaye vətəndaşların həyat keyfiyyətinin böyük ölçüdə asılı olduğu ən vacib sənayedir. Çünki, onun əsas fəaliyyəti müxtəlif sənaye müəssisələri üçün istehlak malları və yarımfabrikatların, materialların istehsalıdır. Yüngül sənaye müxtəlif növ xammallardan istehlak malları istehsal edən sənaye sahələrinin məcmusudur. Yüngül sənaye sahəsinə toxuculuq məmulatların istehsalı (toxuculuq

©Şəhriyar Müslət oğlu Kərimov Azərbaycan Texnologiya Universiteti, doktorant.E-mail: sehriyarkerimov00@gmail.com
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sənayesi), tekstil məmulatlarının istehsalı (geyim sənayesi), dəri məmulatlarının istehsalı (dəri məmulatları sənayesi), ayaqqabı istehsalı (ayaqqabı sənayesi) sahələri daxildir. Azərbaycanda yüngül sənaye toxuculuq, xəz-dəri, gön-dəri, xalçaçılıq, geyim, ayaqqabı, trikotaj və s. istehsal sahələrindən ibarətdir [1]. Bu sənaye sahəsi ölkə iqtisadiyyatında mühüm rol oynayır, lakin ÜDM-in həcmində çox kiçik xüsusi çəkiyə malikdir. Yüngül sənaye bir qayda olaraq, ağır texnikadan istifadə etməyən kiçik sənaye sahələrini birləşdirir. O, həm xammalın ilkin emalı, həm də hazır məhsulların buraxılışını həyata keçirir. Bu sənayenin müəssisələri mebel, avtomobil, kimya, elektrik, qida və digər sənaye sahələrində, kənd təsərrüfatında, hüquq-mühafizə orqanlarında, nəqliyyatda və səhiyyədə istifadə olunan məhsullar istehsal edir [2, s.508]. Yüngül sənayenin xammal bazasını əsasən kimya sənayesi, heyvandarlıq və bitkiçilik məhsulları təşkil edir və bu o deməkdir ki, yüngül sənayenin inkişafı həmin sahələrin inkişafından asılıdır.

**Azərbaycanda yüngül sənaye sahəsinin inkişafına yanaşmalar və müasir vəziyyət**

Yüngül sənaye ənənəvi olaraq xalq təsərrüfatının bir sıra sahələri üçün texniki və xüsusi təyinatlı məhsulların istehsalı ilə də məşğuldur. Sənayenin texnoloji imkanları xammalın ilkin emalını həyata keçirməyə və hazır məhsullar istehsal etməyə imkan verir. Yüngül sənaye məhsullarının çatışmazlığı digər sənaye sahələrinin müəssisələrinin fəaliyyətinin dayanmasına səbəb ola bilər və bu da öz növbəsində ölkənin iqtisadi vəziyyətinə mənfi təsir göstərəcəkdir. Bu sənayenin məhsullarına ayaqqabılar, geyimlər, iş geyimləri, tibbi ləvazimatlar, xəz və dəri məmulatları, xalçalar, iplər, papaqlar, parçalar və s. daxildir. Yüngül sənaye onun inkişafına bu və ya digər şəkildə təsir edən bir sıra xüsusiyyətlərə malikdir:

- xammal istehsalı müəssisələri çox vaxt onun mənbələrinin yaxınlığında yerləşir;
- müəssisələr məhsul istehsalının tam tsiklini həyata keçirə bilməz, əmtəə müxtəlif müəssisələrdə hər mərhələdən keçə bilər ki, bu da istehsal prosesinin sadələşdirilməsinə kömək edir;
- hazır məhsulun görünüşü böyük əhəmiyyət kəsb edir;
- müəssisələrdə tez-tez bitmiş məhsulların çeşidində dəyişiklik olur;
- zaman keçdikcə kadrların böyük hissəsinin qadın olduğu üzə çıxır;
- ətraf mühitə minimal təsir göstərir ki, bu da müəssisələrin şəhər daxilində yerləşdirilməsinə imkan verir;
- kadrlara qoyulan tələblər siyahısında yüksək ixtisasla yanaşı, yaradıcılıq və üslub hissinin olması vacibdir;
- yüksək kapital dövriyyəsinə malikdir [3, s.215; 4, s.417].

Bunlarla bərabər, qeyd edək ki, yüngül sənayenin bir milli iqtisadiyyat sahəsi kimi əsas vəzifələrinə bunları aid etmək olar: istehlakçıların toxuculuq məhsullarına, geyimə, ayaqqabıya olan tələbatının ödənilməsi; əmək ehtiyatlarının strukturunun rasionallaşdırılması; sənayenin inkişaf etdiyi ərazilərdə qadın əməyinin istifadəsi; yüngül sənayedə kiçik və orta sahibkarlığın inkişafı; kiçik və orta regionlarda iqtisadi inkişafın sabitləşdirilməsi. Böyük sosial-iqtisadi əhəmiyyəti olan, sənayenin zəruri malların istehsalçısı kimi çıxış edən yüngül sənaye ölkənin iqtisadi təhlükəsizliyinə də mühüm təsir göstərir. Hər bir ölkənin iqtisadi və strateji təhlükəsizliyinin təmin edilməsində yüngül sənayenin birləşdirdiyi geyim və ayaqqabı sənayesinin inkişafı böyük rol oynayır. Bu sahə həmişə əhalinin, xüsusən də qadınların məşğulluğunu təmin edib ki, bu da onun yüksək sosial əhəmiyyətindən xəbər verir. Həm idxalı əvəz edən məhsullarla daxili bazarı artırmaq, həm də yerli məhsulların ixracını artırmaq baxımından bu səanye sahəsinin inkişaf etdirilməsi mühüm vəzifədir. Azərbaycanda yüngül sənayenin inkişafı üçün lazımi şəraitin



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

olmasına baxmayaraq, bu sənaye sahəsi daxili tələbatın yalnız kiçik bir hissəsini əhatə edir. Respublikada yüngül sənaye sahə məhsullarının idxalından asılılıq problemi kifayət qədər vardır və demək olar ki, yerli müəssisələr keyfiyyət baxımından xarici istehsalçılarla rəqabət apara bilmir. İdxaldan asılılıq probleminin həlli yalnız yerli yüngül sənaye müəssisələrinin rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə artırmaqla mümkündür. Bu baxımdan, Azərbaycanda yüngül sənayenin inkişafı bu sahədə həyata keçirilən dövlət strategiyasından asılıdır. Dövlət strategiyasının əsas məqsədi Azərbaycanda qlobal əmək bölgüsü sisteminə inteqrasiya olunmuş və ölkənin təbii rəqabət üstünlüklərinə əsaslanan dayanıqlı yüngül sənaye sahəsi yaratmaqdan ibarət olmalıdır və bu məqsədlə bir qrup məsələlər xüsusi əhəmiyyət kəsb edir:

- İdxalın əvəzlənməsi, daxili tələbatın inkişafı və rəqabətqabiliyyətli bazar seqmentlərində ixrac potensialının reallaşdırılması yolu ilə yüngül sənayenin dəyər zəncirinin ÜDM-də xüsusi çəkisinin artırılması.
- Strateji əhəmiyyətli sənaye sahələrinin yüksək əlavə dəyərə malik texnoloji tekstil məhsulları ilə təmin edilməsi.
- Yüksək əmək məhsuldarlığına malik iş yerlərinin yaradılması və aşağı məhsuldarlığa malik seqmentlərdən işçi qüvvəsinin qismən yerdəyişməsi yolu ilə sənayedə məşğulluğun saxlanması və dəstəklənməsi.
- Azərbaycanın geyim və ayaqqabı brendlərinin yaradılmasına və inkişafına dəstək göstərilməsi.
- Yüngül sənaye mallarının qeyri-qanuni dövriyyəsinə qarşı mübarizənin aparılması.
- Yüngül sənayenin rəqabətqabiliyyətli seqmentlərində ixracın stimullaşdırılması.
- Sənayenin ixtisaslı kadr potensialının formalaşdırılması.
- Elmi-tədqiqat və texnologiya transferinin stimullaşdırılması.
- Sənayenin inkişafı üçün informasiya və marketinq dəstəyinin göstərilməsi.
- Yüngül sənayenin inkişaf strategiyasının həyata keçirilməsinin səmərəliliyinin təmin edilməsi və ona nəzarətin təşkili.



Bu məqsədlərə nail olmaq üçün istər milli iqtisadiyyatın müxtəlif sahələri üçün xarakterik olan, istərsə də kadr potensialının inkişafına dövlət dəstəyindən ibarət olan kompleks tədbirlər həyata keçirmək lazımdır. Belə tədbirlərə: dövlət sifarişləri və dövlət satınalmaları mexanizmlərinin təkmilləşdirilməsini; idxal rüsumlarının differensial şəkildə artırılmasını və yerli xammal və komponentlərdən istifadənin həcmi nəzərə alınmaqla sənaye sahələri üçün vergi yüklərinin azaldılmasını aid edə bilərik. Bundan əlavə, təkcə yüngül sənaye deyil, həm də emal və maşınqayırma sahələrinin modernləşdirilməsi və yenidən qurulması həyata keçirilməlidir. Avadanlıqların modernləşdirilməsi və istehsal gücünün artırılması üçün regional və dövlət səviyyələrində müəssisələrə maliyyə yardımı lazımdır. Regional proqramlar məqsədyönlü istiqamətlər üzrə kadrlar hazırlamaqla, regionda rahat sosial-iqtisadi şərait yaratmaqla, həm yerli bazarda, həm də ondan kənarda məhsullara sabit tələbat yaratmaqla istehsalı dəstəkləməlidir. Dövlət mövcud təcrübədən istifadə edərək, regional xüsusiyyətlərə əsaslanaraq, minimal logistika xərcləri ilə bütün ölkəni lazımi məhsullarla təmin edən sənaye müəssisələri sistemini təkmilləşdirilməlidir. Belə ki, toxuculuq, geyim, ayaqqabı və dəri məmulatları istehsalı müəssisələrini yerləşdirərkən xammal bazalarının yaxınlığı, nəqliyyat əlçatanlığı və ərazidə əmək resurslarının mövcudluğu əsas götürülməlidir. Məlumdur ki, qlobal satış bazarı COVİD-19 koronavirus pandemiyası məhdudiyyətlərinin tətbiqi səbəbindən böyük itkilərə məruz qalıb. Pandemiyanın yayıldığı ilk dövrlərdən başlayaraq istehlakçıların gəlirlərinin azalması müşahidə olunmuş, məsafədən biznes formasına keçid nəticəsində istehsalçılar xərclərini azaltmışlar. Bütün bunlar yüngül sənayenin tədarük həcminə mənfi təsir göstərmişdir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

İşçilərin ixtisarı və tədarük həcminin azalması səbəbindən yüngül sənayedə əlavə itkilər oldu. Yuxarıda deyilənlərin hamısı pandemiya şəraitində yüngül sənayenin Azərbaycan iqtisadiyyatındakı rolunun yenidən nəzərdən keçirilməsini və iqtisadiyyatın bu sektorunun ümumi istehsalın həcmində payını artıra biləcək strateji inkişaf mexanizmin işlənib hazırlanmasını tələb edir. Ölkənin Dövlət Statistika Komitəsinin mənbələrinə əsasən yüngül sənayenin ümumi istehsalda payına dair statistik məlumatları təhlil edək (cədvəl 1.)

**Cədvəl 1.**

**Yüngül sənaye müəssisələrinin işinin bəzi əsas makroiqtisadi göstəriciləri**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| **Bütün sənaye üzrə investisiyalar** | **8499,9** | **9949,8** | **10610,1** | **8497,2** | **9258,0** | **9065,3** |
| O cümlədən, | | | | | | |
| Toxuculuq sənayesi | 10,2 | - | 5,9 | 42,9 | 88,3 | 15,4 |
| Geyim istehsalı üzrə | 10,4 | 10,5 | 15,3 | 23,7 | 20,0 | 26,5 |
| Dəri və dəridən məmulatların və ayaqqabıların istehsalı üzrə | 8,8 | 0,0 | 0,1 | 1,9 | 0,7 | - |
| **Bütün sənaye məhsulunun həcmi, milyon manat** | **26369,4** | **32300,2** | **39892,5** | **47677,0** | **46999,2** | **37269,9** |
| O cümlədən, | | | | | | |
| Toxuculuq sənayesi | 31,7 | 96,8 | 182,3 | 248,3 | 304,3 | 240,9 |
| Geyim istehsalı üzrə | 75,2 | 86,7 | 104,0 | 103,6 | 111,7 | 112,8 |
| Dəri və dəridən məmulatların və ayaqqabıların istehsalı üzrə | 12,2 | 13,6 | 18,0 | 26,1 | 21,8 | 25,8 |

Mənbə: Cədvəl ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib. https://www.stat.gov.az/

Cədvəl 1-dən göründüyü kimi, 2020-ci ildə respublika üzrə bütün sənaye məhsulunun həcmi 37269,9 milyon manat təşkil etmişdir ki, bunun da 240,9 milyon manatı və yaxud 0,65%-i toxuculuq məhsulları, 0,30%-i geyim istehsalı, 0,07%-i isə dəri və dəridən məmulatların və ayaqqabıların istehsalı müəssisələrinin payına düşür. 2020-ci ildə toxuculuq sənayesi üzrə istehsal həcmi 2018-ci illə müqayisədə 63,4 milyon manat və yaxud 26,3%, 2019-cu illə müqayisədə 7,4 milyon manat və yaxud 3,1% azalmışdır. Geyim istehsalı 2019-ci illə müqayisədə 1,1 milyon manat və yaxud 1,0%, 2018-ci illə müqayisədə 9,2 milyon manat və yaxud 8,8%, dəri və dəridən məmulatların və ayaqqabıların istehsalı isə 2019-cu illə müqayisədə 4,0 milyon manat və yaxud 18,3% artmışdır. Aşağıdakı şəkil vasitəsilə 2015-2020-ci ilər üzrə yüngül sənayenin əsas sahələri üzrə məhsul istehsalının artım dinamikasını nəzərdən keçirək (şəkil 1).



Pandemiya şəraitində alıcılıq səviyyəsinin aşağı düşməsi ölkəmizin toxuculuq sənayesi məhsullarının həcminin azalmasına səbəb olmuşdur. Lakin buna baxmayaraq, geyim, dəri və dəridən məmulatların və ayaqqabıların istehsalı sahəsində artım müşahidə olunmuşdur. Qlobal miqyasda yayılan koronavirus epidemiyası iqtisadiyyatın bütün sektorlarından mövcud istehsal müəssisələrinin modernləşdirilməsi və yenidən layihələndirilməsi üçün zəruri tədbirlər görməyi tələb edir. Bu şəraitdə ölkəmizin yüngül sənayesi çeşidin xüsusiyyətlərinə görə, maskalar və xüsusi kostyumların istehsalı üçün dövlət sifarişləri hesabına istehsal həcmini artırmaq üçün deyil, həm də sərmayə qoyaraq, transformasiya etmək imkanı əldə etmək üçün real imkana malikdir. Yüngül sənayenin əsas məhsulu kimi geyimə istehlakçı tələbatının azalması, xammal tədarükündə müvəqqəti fasilələrə, eləcə də sərhədlərin bağlanması ilə əlaqədar logistika xərclərinin artmasına baxmayaraq, pandemiya dövründə mövcud vəziyyət bu sənayenin geyim, dəri və dəri məmulatları sahəsində istehsal göstəricilərini artırmağa imkan vermişdir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Şəkil 1.**

**Toxuculuq, geyim, dəri və dəridən məmulatların və ayaqqabıların istehsalı üzrə məhsul istehsalının artım dinamikası (mln.manat)**




Mənbə: Şəkil ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib https://www.stat.gov.az/.

Yüngül sənayenin modelləşdirilməsi və müasir texnologiyalara əsasında inkişafı məsələləri Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş “Milli iqtisadiyyatın və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri”ndə öz əksini tapıb. Yaxın gələcəkdə yüngül sənayenin xammal bazasının və istehsal gücünün genişləndirilməsi, bu sahədə müasir texnologiyaların tətbiqi və yüngül sənayedə yeni iş yerlərinin yaradılması nəzərdə tutulur [5, s. 215]. Hazırda yüngül sənaye məhsulunun Azərbaycanın ümumi daxili məhsulunun istehsalında xüsusi çəkisi 1%-dən də aşağı olmuşdur. Belə ki, 2020-ci ildə yüngül sənayenin əsas sahələri olan toxuculuq, geyim, dəri və dəridən məmulatların və ayyaqqabıların istehsalı üzrə məhsul həcmi 379,5 milyon manat, 2019-cu ildə 443,8 milyon manat təşkil etmişdir ki, bu da ölkənin ÜDM-nin 0,5%-i deməkdir [6]. Göründüyü kimi, 2019-2020-ci illərdə toxuculuq, geyim, dəri və dəridən məmulatların və ayyaqqabıların istehsal həcminin ÜDM-də xüsusi çəkisi dəyişməmişdir.



**Cədvəl 2.**

**Yüngül sənaye istehsalı həcminin ÜDM-də xüsusi çəkisi (%)**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| ÜDM, milyon manat | 54380,0 | 60425,2 | 70337,8 | 80092,0 | 81896,2 | 72432,2 |
| toxuculuq, geyim, dəri və dəridən məmulatların və ayyaqqabıların istehsalı, milyon manat | 119,1 | 197,1 | 304,3 | 378,0 | 443,8 | 379,5 |
| Sahə məhsullarının ÜDM-də xüsusi çəkisi, faizlə | 0,2 | 0,32 | 0,43 | 0,47 | 0,54 | 0,52 |

Mənbə: Cədvəl ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib. https://www.stat.gov.az/

Yüngül sənaye gələcəkdə ölkənin ÜDM-nin formalaşmasında, əhalini istehlak malları ilə, eləcə də müxtəlif sənaye və texniki təyinatlı sahələrə aid olan əşyalarla təmin edən əsas sahəyə çevrilə bilər. Dünyanın aparıcı dövlətləri yeni geosiyasi şəraitdə iqtisadi və strateji təhlükəsizliyin təmin edilməsində, əmək qabiliyyətli əhalinin məşğulluğunda və onun həyat səviyyəsinin yüksəldilməsində yüngül sənayenin mühüm rolunu nəzərə alaraq, bu sənayenin inkişafına xüsusi diqqət yetirir və əhəmiyyətli investisiya ilə təmin edir. Yüngül sənayenin problemlərinin həllində və onun səmərəli inkişafı üçün investisiyaların cəlb edilməsində dövlət siyasətinin əsas alətlərindən biri Azərbaycanda yüngül sənayenin inkişafı strategiyası ola bilər. Bu strategiya yüngül sənayeni inkişaf etdirə biləcək pilot investisiya layihələrinə

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

əsaslanmalıdır və bunun üçün həmin sahənin investisiyalaşdırılması zəruridir. Cədvəl 1-in məlumatlarına diqqət yetirsək görərik ki, 2020-ci ildə bütün sənaye üzrə əsas kapitala yönəldilmiş investisiyaların həcmi 9065,3 milyon manat təşkil etmişdir ki, bunun da 15,4 milyon manatı və yaxud 0,2%-i toxuculuq sənayesinin, 26,5 milyon manatı və yaxud 0,3%-i geyim istehsalı müəssisələrinin payına düşür. Dəri və dəridən məmulatların və ayaqqabıların istehsalına isə heç bir investisiya qoyulmamışdır. 2020-ci ildə özündən əvvəlki ilə nisbətən toxuculuq sənayesinə investisiya qoyuluşlarının həcmi azaldığı halda, geyiş istehsalı sahəsi üzrə artım müşahidə edilmişdir. Şübhəsiz, bu vəziyyətin dəyişdirilməsi və yüngül sənaye sahəsinin investisiya cəlbediciliyinin artırılması tədbirləri görülməlidir.

**Yeni çağırışlar kontekstində Azərbaycanda yüngül sənaye sahəsinin inkişafının əsas istiqamətləri**

Yüngül sənaye müəssisələrində investisiya fəaliyyətini stimullaşdırmaq üçün idarəetmə qərarlarının qəbulunun səmərəliliyini artırmaq, sürətlə dəyişən xarici mühitdə ayrı-ayrı müəssisələrin qarşılıqlı əlaqələrinin bütün spektrini nəzərə almaq, strateji tədbirlər kompleksini formalaşdırmaq lazımdır. Yüngül sənayenin sosial-iqtisadi inkişafının müxtəlif ssenarilərinin formalaşdırılması üçün hansı resursların çatışmadığını da müəyyən etmək lazımdır. Bu tədbir idarəetmə qərarları qəbul etməklə əlavə resursların cəlb edilməsinə xidmət edəcək və bu resurslar xarici mühitdə baş verən mənfi və müsbət dəyişiklikləri nəzərə almaqla sənayenin strateji mərhələdə rasionallaşdırılması üçün əsas yaradır. İnvestisiya fəaliyyətinin stimullaşdırılması mexanizmini optimallaşdırmaq üçün dövlətin və sənayenin məhdud investisiya resurslarını yüngül sənayenin alt sahələrində cəmləşdirmək lazımdır. Bu sahədə prioritetlərin seçilməsi Azərbaycan Respublikasının kompleks sosial-iqtisadi inkişaf proqramlarına uyğun olaraq həyata keçirilir [7, s.100]. Ölkədə strateji əhəmiyyətli sahə kimi yüngül sənayenin inkişafı üçün bir sıra maneələr mövcuddur ki, bunlara aşağıdakıları daxil edə bilərik:

- toxuculuq və yüngül sənayenin xammal bazasının yetərli olmaması;
- ölkənin daxili bazarında yüngül sənaye mallarının qeyri-qanuni dövriyyəsinin mövcudluğu;
- sənayenin aşağı investisiya cəlbediciliyi, kreditlər üzrə yüksək faiz dərəcələri;
- ixtisaslı kadr çatışmazlığı, regional orqanların və ərazi ixtisaslaşdırılmış idarələrin iştirakı ilə işçilərin peşəkar hazırlığının lazımi səviyyədə aparılmaması;
- yerli istehlakçıların əksəriyyətinin yerli mallara maraq göstərməməsi;
- yüngül sənayedə texniki tənzimləmə - könüllü sertifikatlaşdırma proqramının lazımi səviyyədə olmaması.

Yüngül sənayenin inkişafındakı əsas maneələri bu sənayedə sahibkarlığın inkişafı strategiyasının formalaşdırılması ilə aradan qaldırmaq olar. Hazırda dövlət orqanları tərəfindən sahibkarlığın inkişafı üçün müxtəlif səviyyələrdə, o cümlədən yüngül sənaye üçün dəstək proqramları hazırlanmışdır. Yüngül sənayedə sahibkarlığın inkişafı üçün aşağıdakılara diqqət yetirilməlidir:

- sahibkarlığın inkişafına dəstək formalarının verilməsi: qrantlar, subsidiyalar, vergi yükünün azaldılması, güzəştli kreditlərin verilməsi;
- ölkə iqtisadiyyatının inkişafında regionların rolunun gücləndirilməsi;
- elmi-texniki tərəqqinin yüksək səviyyəsi, iqtisadiyyatın müxtəlif sahələrində innovativ məhsulların inkişafı;
- gənclərin sahibkarlıq ruhunun formalaşmasında universitetlərin rolunun artırılması;
- elmi-tədqiqat işlərinin inkişafı və onların sahibkarlıq fəaliyyətində tətbiqi;



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- əhalinin məşğulluğunun təmin edilməsi çərçivəsində sahibkarlıq strukturlarına diqqətin artırılması;
- sahibkarlıq subyektlərinin güclü və zəif cəhətlərinin qiymətləndirilməsi .

Yüngül sənayedə sahibkarlıq subyektlərin güclü və zəif tərəflərini və onların potensialını qiymətləndirmək üçün metodoloji yanaşmanın formalaşdırılması zəruridir ki, bu zaman qiymətləndirmənin əsas parametri subyektlərin rəqabət qabiliyyətidir [8, s.488]. İstehlakçılarının gözləntilərini və deməli, bazar tələblərini ödəməyə çalışan hər bir sənaye müəssisəsi özünün innovativ fəaliyyətini kifayət qədər yüksək səviyyədə təmin etməlidir. Çünki bu, şirkətə təkcə dayanıqlılığın saxlamağa deyil, həm də rəqabət qabiliyyətini artırmağa imkan verəcəkdir. Yüngül sənaye müəssisələrinin innovativ fəaliyyətini bir neçə aspektdə müəyyən etmək olar: innovativ məhsul və texnologiyaları inkişaf etdirmək və tətbiq etmək bacarığı, istehsal prosesinə müxtəlif innovasiyaların tətbiqi üçün intensiv tədbirlər kompleksini həyata keçirmək bacarığı, eləcə də məhsulların təşviqi və satışı prosesində yenilikləri dərk etmək və onların inkişafı üçün mövcud potensialı səfərbər etmək bacarığı [9, s.196]. Yüngül sənaye müəssisələrinin innovativ inkişafı onların yerli və dünya bazarlarında rəqabət qabiliyyətini təmin etmək üçün ilkin şərtdir.

**Şəkil 2.**

**Yüngül sənaye sahəsinin inkişaf etdirilməsi mexanizmi**




Yüngül sənaye müəssisələrinin innovativ fəallığının artırılması və innovativ infrastrukturun formalaşdırılması üçün dövlət dəstəyi, innovasiyalarda maraqlı olan bazar iştirakçılarının əlaqələndirilməsi və inteqrasiyası zəruridir. Eyni zamanda, yüngül sənaye müəssisələrinin innovativ fəaliyyətinin inkişafına mane olan bir sıra amilləri qeyd etmək

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

olar. Yüngül sənaye müəssisələrinin innovativ fəaliyyətinin inkişafına mane olan mühüm amil elmi-tədqiqat institutları ilə yüngül sənaye müəssisələri arasında birgə elmi-texniki və texnoloji inkişaflar baxımından qarşılıqlı əlaqənin olmaması, habelə problemlərin həllinə sistemli yanaşmanın olmamasıdır. Beləliklə, yuxarıda qeyd edilənlərə əsaslanaraq yüngül sənayenin inkişaf etdirilməsi mexanizminin strateji aspektlərini müvafiq sxem şəklində təklif edə bilərik (şəkil 2). Bazar təhlili göstərir ki, yüngül sənayedəki müəssisələr ticarət prosesinin fəal iştirakçıları deyillər və əsasən ənənəvi satış kanallarından istifadə edirlər. Yüngül sənaye məhsullarının satışını e-ticarət istiqamətinə yönləndirmək lazımdır. İnternet bazarı toxuculuq, tekstil, geyim, ayaqqabı, dəri və dəri məmulatları müəssisələrinin satışı üçün aktual istiqamətdir. Təklif olunan tədbirlər yüngül sənayenin strateji inkişafını nəzərdə tutulan məqsədlərinin həyata keçirilməsi prosesini aktivləşdirməyə və qarşıya qoyulan vəzifələrin həllinə imkan verər.

**Nəticə**

Pandemiya şəraitində yüngül sənayenin inkişafı mexanizmini hazırlamaq üçün həm transformasiya proseslərinin sürətinə, həm də yekun nəticələrin əldə edilməsinə əhəmiyyətli təsir göstərə bilən hazırda mövcud ilkin şərtlər və prioritetlər nəzərə alınmalıdır. Yekun olaraq qeyd etmək lazımdır ki, pandemiyanın nəticələrinin bütövlükdə ölkə iqtisadiyyatına mənfi təsirinə baxmayaraq, yüngül sənayenin inkişafı üçün təkan ola bilər. Yüngül sənaye karantin tədbirlərinin tətbiqi və sərhədlərdən hərəkətə məhdudiyyətlərin tətbiqi ilə əlaqədar bir sıra çətinliklərlə üzləşib. Müəssisələr xammal tədarükünün ləngiməsi, qurulan tərəfdaşlıqların pozulması, investisiyaların həcminin azalması, eləcə də maddi-texniki əlaqələrin pozulması problemi ilə üzləşdi. Lakin çətinliklərə baxmayaraq, bəzi müəssisələr artım templərini aşağı salmayıb, əksinə, istehsal həcmini artıra biliblər. Pandemiya şəraitində yüngül sənayenin əhəmiyyətini dərk edən dövlət imtiyazlar və üstünlüklər şəklində dəstək mexanizmlərini yenidən nəzərdən keçirməlidir. Şəkil 2-də təklif edilən mexanizmin daha səmərəli işləməsi üçün yüngül sənayedə bir sıra tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

- Yüngül sənayeni xammalla təmin etmək üçün dövlət yardımını gücləndirmək;
- Kommersiya banklarının maliyyə vəsaitlərini cəlb etməklə yeni texnika və texnologiyadan istifadəyə, habelə xammalın alınmasına nail olmaq;
- Güzəştli şərtlərlə kreditlərin alınması məqsədilə vergi siyasətinin təkmilləşdirilməsi;
- Hazır trikotaj məhsullarının və əllə toxunmuş xalçaların beynəlxalq bazara çıxarılması üçün daha əlverişli şərait yaradılması;
- Sənaye müəssisələrinin idarə edilməsinin bazar iqtisadiyyatının tələblərinə uyğun təşkilinin təkmilləşdirilməsi;
- Dünya ölkələrinin yüngül sənaye müəssisələri ilə elmi-texniki əlaqələrin gücləndirilməsi;
- Yüksək ixtisaslı mütəxəssisləri cəlb etməklə, beynəlxalq standartlara cavab verən yüngül sənaye məhsullarının istehsalına nail olunması.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

## Ədəbiyyat


1. Tekstil fabrikinin yaradılması. Araşdırma metodologiyası. https://smb.gov.az/storage/Tekstil%20fabrikinin%20yarad%C4%B1lmas%C4%B1%20b-a.pdf.
2. Ильинская, С.Д. Характеристика легкой промышленности // Инновационный потенциал развития общества: взгляд молодых ученых, Курск, 01 декабря 2020 года / сборник научных статей Всероссийской научнойконференции перспективных разработок, в 2-х томах. Курск: Юго-Западный государственный университет, 2020.
3. Abbasov, İ.M., Əliyev T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. Bakı: Elm və Təhsil, 2017.
4. Мосиенко, В.Н. Щетинина, С.А., Грицунова, С.В. Анализ состояния лёгкой промышленности в РФ /// Будущее науки-2020: Сборник научных статей 8-й Международной молодежной научной конференции. В 5-ти томах, Курск, 21–22 апреля 2020 года. Курск: Юго-Западный государственный университет, 2020,
5. Əliyev, Ş.T. Azərbaycan iqtisadiyyatı. Ali məktəb tələbələri üçün dərslik. Sumqayıt SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018, 376 s.
6. Azərbaycan sənayesi. Azərbaycan Dövlət Statistika Komitəsi. Bakı, 2021, 243 s.
7. Zeynalov, S. Azərbaycan yüngül sənayesində investisiya proseslərinin dövlət tənzimlənməsinin əsas istiqamətləri. Elm və innovativ texnologiyalar jurnalı, 2019, №8.
8. Кадацкая, Д.В., Лаврова, Ю.С. Методические подходы к оценке стратегического развития предпринимательства в отрасли легкой промышленности как основного драйвера развития региона // Креативная экономика, 2019, т. 13, № 7, с.1483-1494.
9. Пришляк, Е.А., Нефедова Л. В. Инновационная активность российских предприятий легкой промышленности // Сборник научных трудов Международного научно-технического Симпозиума «Экономические механизмы стратегического управления развитием промышленности» Москва, 20–21 октября 2021 года. – с.195-199.




***Шахрияр Муслат оглу Каримов***

***Стратегические аспекты развития легкой промышленности в Азербайджане***

***Резюме***

*Целью исследования является изучение стратегических аспектов развития легкой промышленности в Азербайджане. В статье исследуются и анализируются проблемы потенциала развития легкой промышленности. Изучены вопросы моделирования и развития легкой промышленности на основе современных технологий. Проанализировано состояние легкой промышленности в Азербайджане, объем производства в этой сфере и ее доля в ВВП страны. Выявлены факторы, сдерживающие развитие легкой промышленности. Обоснованы стратегические аспекты развития легкой промышленности в современных глобальных условиях и определены направления ее деятельности. Методология исследования – основана на экономической литературе, посвященной стратегическим аспектам развития легкой промышленности, подходу к проблемам легкой промышленности, а в качестве экономических методов использовались методы анализа, синтеза и обобщения. Практическая значимость исследования – заключается в использовании научно-практических подходов, предложений и рекомендаций, полученных в результате исследований, при организации развития легкой промышленности в Азербайджане в соответствии с современными требованиями и мерами по совершенствованию механизмов развития легкой промышленности. Результаты исследования – связаны с обобщением обоснованных научно-методических подходов, принятием более эффективных мер по ускорению развития легкой промышленности в Азербайджане за счет применения предложенных механизмов. Оригинальность и научная новизна исследования. Основным научным нововведением является формирование концептуальных подходов к стратегическим аспектам развития легкой промышленности Азербайджана в ситуации, когда продолжается влияние современных глобальных проблем. Исходя из имеющегося потенциала легкой промышленности, обоснована важность*

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

*повышения конкурентоспособности и обеспечения инновационного развития предприятий в этой сфере. С учетом устранения негативных последствий пандемии была подчеркнута важность стимулирования инвестиционной активности предприятий легкой промышленности и интенсификации производственных процессов. Даны рекомендации и предложения по стратегическим аспектам развития легкой промышленности в Азербайджане.*

***Ключевые слова:*** *легкая промышленность, предприятия легкой промышленности, стратегические аспекты легкой промышленности, направления развития легкой промышленности, проблемы развития легкой промышленности, вопросы эффективности легкой промышленности, стратегические аспекты развития легкой промышленности.*

***Shahriyar Muslat Karimov***

***Strategic aspects of light industry development in Azerbaijan***

***Summary***

*Purpose of the research – is to study the strategic aspects of the development of light industry in Azerbaijan. The article analyzes the problems of the potential development of light industry. The issues of modeling and development of light industry based on modern technologies are studied. The state of light industry in Azerbaijan, the volume of production in this sphere and its share in the country's GDP are analyzed. Factors that hinder the development of light industry are identified. The strategic aspects of the development of light industry in modern global conditions and the directions of its activities are justified. Research methodology – is based on the economic literature on the strategic aspects of the development of light industry, the approach to the problems of light industry, and methods of analysis, synthesis and generalization are used as economic methods. The practical importance of a research – is the use of scientific and practical approaches, proposals and recommendations obtained as a result of research, when organizing the development of light industry in Azerbaijan in accordance with modern requirements and measures to improve the mechanisms for the development of light industry. The results of the study are related to the synthesis of scientific and methodological approaches, the adoption of more effective measures to accelerate the development of light industry in Azerbaijan through the application of the proposed mechanisms. Originality and scientific novelty of the research – The main scientific innovation is the formation of conceptual approaches to the strategic aspects of the development of Azerbaijan's light industry in a situation where the influence of modern global problems continues. Based on the existing potential of light industry, the importance of increasing competitiveness and ensuring innovative development of enterprises in this area is justified. Taking into account the elimination of the negative consequences of the pandemic, the importance of stimulating the investment activity of light industry enterprises and intensifying production processes is emphasized. Recommendations and proposals on strategic aspects of light industry development in Azerbaijan are given in the end of the article.*

***Keywords:*** *light industry, light industry enterprises, strategic aspects of light industry, directions of light industry development, problems of light industry development, issues of light industry efficiency, strategic aspects of light industry development.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 22.10.2021.***
***Çapa qəbul olunub: 28.10.2021.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*